Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

# XOCAVƏND

№ 04 (92) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti 16-30 iyun 2020-ci il



## Azərbaycan Prezidentinin hərbi hissələrdə ideoloji tərbiyənin yüksək səviyyədə təşkil olunması ilə bağlı tapşırığı böyük önəm kəsb edir

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirakı zamanı deyib ki, son illər ölkəmizdə ordu quruculuğunda, xüsusilə hərbi hissələrin tikintisində Azərbaycan standartları tətbiq edilir və bu standartlar ən yüksək qiymətə layiqdir: "Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir".

Bununla yanaşı, dövlət başçısı hazırda Azərbaycanın dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkə olduğunu bildirərək vurğulayıb ki, biz müharibə şəraitində yaşayırıq və eyni zamanda, bu gün dünyada, beynəlxalq müstəvidə güc amilinin ön plana çıxdığını görürük. Prezident İlham Əliyev beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu, onlara əməl edilmədiyini təəssüflə qeyd edərək bildirib ki, bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Bununla yanaşı, dövlət başçısı qeyd etdi ki, biz bunu görürük, müşahidə edirik və buna uyğun öz addımlarımızı atmalıyıq, çünki biz real vəziyyətlə hesablaşmalıyıq.

Bu baxımdan, Ali Baş Komandan bildirib ki, beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və biz buna artıq çoxdan başlamışıq. Məhz bunun nəticəsində bu gün Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir: "Bu gün texniki təchizat baxımından Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bizim zirehli texnikamız ən yüksək standartlara cavab verir. Bizim hava hücumuna qarşı müdafiə sistemimiz müasirləşib və bu hərbi hissənin vəzifəsi məhz bundan ibarətdir. Biz bir neçə ölkədən hava hücumuna qarşı ən müasir qurğular əldə etmişik. Onların Azərbaycanda - bizim coğrafiyada bir-birinə inteqrasiya edilməsi də asan məsələ deyil. Çünki bizim hava hücumuna qarşı müdafiə sistemlərimiz, - bu, sirr deyil, bu məlumat artıq açıqlanıb, - həm Rusiya istehsalıdır, Belarus istehsalıdır, İsrail istehsalıdır, eyni zamanda, sovet vaxtından qalan qurğulardır və onlar da modernləşdirilib. Onları bir-birinə elə inteqrasiya etmək, elə yerləşdirmək lazımdır ki, bizim bütün strateji obyektlərimiz havadan qorunsun. Əlbəttə ki, böyük peşəkarlıq və vəsait tələb edir. Bizim vəsaitimiz olmasaydı, bunları haradan alacaqdıq. Bir ölkə varmı ki, bizə pulsuz, müftə nəsə verib. Belə bir ölkə yoxdur, heç vaxt da olmayıb, o cümlədən hərbi sahədə. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

(Davamı səh. 5-də)



## Ulu Öndər müasir Azərbaycan Ordusunun qurucusudur

Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olaraq dövlət quruculuğunun tərkib hissələrindən biridir. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olmuşdur.

Müasir Azərbaycan dövlət müstəqilliyinə 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu mənada fəxrlə deyə bilərik ki, Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün qüdrətlənən və gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur.

Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi, böyük siyasətçi, həm də peşəkar hərbçi idi. Elə buna görə də Ulu Öndərin hakimiyyətə gəlişindən sonra ordu quruculuğunun diqqətçəkən əsas tərəfi onun yüksək peşəkarlıqla həyata keçirilməsi idi.

Heydər Əliyevin AXC-Müsavat dövründə yaradılmış və daha çox ayrı-ayrı şəxslərin, bəzi siyasi partiyaların konyunktur maraqlarına, dövlət çevrilişi məqsədlərinə xidmət edən silahlı dəstələri buraxmaqla, onların fəaliyyətini qanundan kənar elan etməklə başladığı ordu quruculuğunun effektiv nəticələri artıq 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində özünü göstərməyə başlamışdı. Başlanğıcını 1993-cü il noyabrın 2-dən - Ulu Öndərin xalqa müraciətindən götürən və tarixə Heydər Əliyevin ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldılar, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdilər.

Heydər Əliyevin 1994-cü il yanvarın 24-də cəbhəyə yola düşən yeni hərbi hissənin şəxsi heyətinə xitabən dediyi "Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır" sözlərini unutmayan, Ulu Öndərin bu xeyirduasından ruhlanan zabitlərimiz, əsgərlərimiz, gizirlərimiz və çavuşlarımız o dövrdə sinələrini düşmən pulemyotunun qarşısına verməklə, əldə qumbara düşmən tankının altına atılmaqla əsl qəhrəmanlıq dastanları yaratdılar.

1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Ordunun maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Heydər Əliyevin təhlükəsizlik siyasəti və strategiyası, ordu quruculuğu ilə bağlı başladığı işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.




# Ölkəmizin qədim və müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır

**İLHAM ƏLİYEV:** "Mən deminşəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır. Görün, nəyə sevinirlər? Sevinirlər ki, neftin qiyməti 14 dollara düşüb. Buna kim sevinir? Bir Ermənistan, bir də özünü müxalifət adlandıran bu antimilli şura. Neftin qiyməti 14 dollara düşəndə axı, insanlar bundan əziyyət çəkəcək, problemlər yaranacaq, sosial sahədə problemlər yaşana bilər, iqtisadiyyatımız yavaşıyar. Amma bu, onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır. Bax, onlar o vaxt da bu prinsiplə yaşayırdılar. Ona görə torpaqlarımızı əldən verdilər. Dövlət katibi o vaxt prezidentlə bir yerdə fərarilik edib. O da getdi gizləndi Kələkidə. Parlamentin sədri fərarilik etdi. Onlar fərarıdirlər, satqındırlar, xaindirlər. Hər kəs bunu bilməlidir, heç kim bunu unutmamalıdır".

# Şəhid Ibrahimov Mübariz Ağakərim oğlu




18 İyun - Azərbaycan torpaqlarını erməni qəsbkarlarından azad etmək uğrunda canından keçmiş Mübariz İbrahimovun şəhid olduğu gündür.

Şəhid Ibrahimov Mübariz Ağakərim oğlu.

1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. M.Piriyev adına Əliabad kənd orta məktəbini 2005-ci ildə bitirib.

Elə həmin il həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub.

Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində xidmətə başlayıb və öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb.

2010-cu il iyunun 18-də gecə gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçərək Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini məhv edib. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək onlarla 5 saat təkbətək döyüşüb. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə sərəncam imzalayıb. Şəhid gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib.

Allah rəhmət eləsin!

# Əsas məqsəd ordumuzun döyüş qabiliyyətini artırmaqdır

4 il əvvəl - 2016-cı ilin aprel ayının ilk günlərində Tərtər və Füzuli istiqamətində erməni hərbi birləşmələrinin hücumlarının və təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun keçirdiyi uğurlu hərbi əməliyyatlar Silahlı Qüvvələrimizin gücünü reallıqda təsdiqləyən hadisə oldu. Həmin döyüşlərədək Ermənistan siyasi rejimi tərəfindən belə bir mif yaradılmışdı ki, işğalçı dövlətin ordusu və onların yaratdığı istehkamlar keçilməzdir. Lakin Aprel döyüşləri bunun sadəcə mif olduğunu sübuta yetirdi. Həmin günlərdə düşmən ordusu bir həmləyə biabırçı məğlubiyyətə uğradıldı və cəbhənin iki istiqamətində illərdir bərkidib-betonladığı, dinc əhalinin başına güllə, mərmi yağdırdığı mövqelərdən bir gecədə qovulub çıxarıldı. Bununla da Azərbaycanda atəşkəs razılaşmasından sonra həyata keçirilən ordu quruculuğunun effektiv nəticələri, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılması istiqamətində atılan addımlar dördgünlük müharibədə öz təsdiqini tapdı. Həmin döyüşlər bizim böyük tarixi qələbəmiz, Ermənistanın isə həm siyasi, həm iqtisadi, həm də psixoloji cəhətdən məğlubiyyəti kimi tarixə düşdü. Bu hadisə demək olar ki, Ermənistanın ideoloji əsaslarını dağıtdı, bu ölkənin rəhbərliyi məğlubiyyətdən sonra özünü tam şəkildə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Həmçinin düşmən bir daha şahidi oldu ki, Azərbaycan əzəli torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir.



Aprel döyüşləri mühüm hərbi qələbə olmaqla yanaşı, beynəlxalq arenada bütün diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi. Hadisələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi. Bu döyüşlər dövlətimizin və ordumuzun gücünü, xalqın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha göstərdi. Ermənistan hakimiyyəti bir daha gördü ki, xalqımız heç vaxt ərazilərinin işğalı ilə barışmayacaq və torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir.

Naxçıvanda Günnüt kəndinin işğaldan azad olunması və Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin aprel qələbəsindən sonra növbəti zəfəri oldu. Xalq Cümhuriyyətinin və ordumuzun yaradılmasının yüzüncü ildönümünə təsadüf edən bu hadisə cəmiyyətimizin xoş ovqatını daha da artırdı, düşmən üzərindəki qələbə gününün o qədər də uzaqda olmadığını göstərdi. Hər birimiz növbəti dəfə ordumuzdakı qalibiyyət əzminin şahidi olduq. Günnüt əməliyyatı zamanı Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu ön xəttin dövlət sərhədi boyu əlverişli mövqeləri ələ keçirdi. Dərinlikdəki əlverişli yüksəkliklər düşməndən geri alındı. Bu, ordumuza Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyətli Yerevan-Yexeqnddzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı verdi. Ümumilikdə, bu əməliyyat zamanı 11 min hektar ərazi düşməndən azad edildi.

Prezident İlham Əliyevin Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında çıxış edərkən 2016-cı və 2018-ci illərin hərbi əməliyyatlarının əhəmiyyətindən danışdı: "Əlbəttə ki, əsas döyüş qabiliyyətimizdir. Bütün digər amillər ki, mən qeyd etdim bunun məqsədi var, o da döyüş qabiliyyətini artırmaqdır. Bu istiqamətdə də lazımi addımlar atılır. Həm 2016-cı ilin, həm 2018-ci illərin hərbi əməliyyatları bunu göstərdi. Biz böyük ərazini işğalçılardan azad edə bilmişik. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsini 2016-cı ildə düşməndən azad etmişik və o torpaqlarda Azərbaycan bayrağını ucaltmışıq. Ermənilərin işğal edilmiş torpaqlarda qazdıqları səngərlərə girmişik. Biz indi orada otururuq və orada möhkəmlənmişik. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazini işğalçılardan azad etmişik və strateji yüksəkliklərə çıxmışıq".

# Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVİD-19-a həsr olunan xüsusi sessiyası

130-a qədər BMT üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın və hörmətin növbəti göstəricisidir. Xüsusi sessiya pandemiya ilə mübarizədə beynəlxalq ictimaiyyətin tam səfərbər edilməsinə şərait yaradacaq. Dünyanın 130-dan çox dövləti Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkil olunması təşəbbüsünü dəstəkləməsi həm də təşəbbüsün vaxtında irəli sürüldüyünü bir daha təsdiq edir. Dünyada COVİD-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü bu il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfrans formatında COVİD-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Zirvə Görüşü təşkil edildi. Bu tədbirdə Qoşulmama Hərəkatı üzv dövlətləri ilə yanaşı BMT-nin Baş Katibi, BMT Baş Assambleyasının Prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş Direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak etdilər. Tərkibində 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisatdır. Bundan öncə isə Prezident İlham Əliyevin təşəbbüsü ilə pandemiya ilə mübarizəyə həsr edilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçirilib. Eyni zamanda Azərbaycan COVİD-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırıb, 30-dan artıq dövlətə humanitar yardım edib.



Söhbət həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə birlikdən gedir. Dövlət başçısı dəfələrlə ümumən cəmiyyətin sağlamlığının qorunması üçün hər bir kəsin məsuliyyətli davranmasının, tibbi maskadan istifadə edilməsinin, sosial məsafənin qorunmasının, şəxsi gigiyenaya diqqət yetirilməsinin vacib olduğunu, pandemiya ilə mübarizədə yalnız birgə səyin nəticə verəcəyini bəyan edib. Eyni zamanda Prezident İlham Əliyev dövlətlərin pandemiya ilə mübarizədə birgə səy göstərməsinə dair təşəbbüsün müəlliflərindən biri, birincisidir. Hazırda pandemiya ilə mübarizədə başqa bir yol da yoxdur. Öncə də qeyd etdiyim kimi, Prezident İlham Əliyev bunu Türk Şurası və də Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfrans formatında Zirvə görüşlərində də bəyan edib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVİD-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsinin 130 qədər dövlət tərəfindən dəstəklənməsi çox mühümdür. Onu da nəzərə çatdırım ki, BMT Nizamnaməsinə əsasən, BMT Baş Assambleyası ehtiyac duyulduğu təqdirdə Xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılmalıdır. BMT-nin təsis olunmasından indiyə qədər Baş Assambleyanın xüsusi sessiyaları məhdud sayda keçirilib. Təklif Nyu Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkələri arasında yekdilliklə razılaşdırılıb və bunun ardınca Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv ölkələr adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə BMT baş katibi Antonio Quterreşə müraciət ünvanlayıb .BMT Baş katibi 28 may tarixində BMT Baş Assambleyasının "Prosedur Qaydaları" adlı sənədinin 9 (a) bəndinə uyğun olaraq bütün üzv ölkələrə müraciət edərək 30 gün müddətində, yəni 27 iyun tarixinə qədər təşəbbüsə dair münasibət bildirilməsini xahiş edib. Qaydalara əsasən, BMT-yə üzv ölkələrin çox hissəsi (97 ölkə kifayətdir) təşəbbüsə dəstək verdiyi təqdirdə, xüsusi sessiya təşkil olunmalıdır. Azərbaycan tərəfində olan rəsmi məlumatlara görə, həmin müddətin bitməsinə qədər 130-a qədər ölkə təşəbbüsə dəstək verdikləri barədə Baş katibin ofisini məlumatlandırıblar.

Xüsusi sessiya pandemiya qarşısında beynəlxalq ictimaiyyətin tam olaraq səfərbər olunmasına şərait yaradacaq və bu qlobal təhdidə qarşı qlobal cavabın tapılmasına öz müsbət töhfəsini verəcək. "COVİD-19 pandemiyasının davam etməsi bir daha onu göstərir ki, dünya ölkələrinin dövlət və hökumət başçıları səviyyəsində dünya parlamenti adlandırılan BMT Baş Assambleyasının Xüsusi sessiyası çərçivəsində təcili və təxirə salınmadan bir araya gəlməsinə, dünyanı bürüyən COVİD-19 bəlasından çıxış yollarını müzakirə etməsinə və həll yollarının tapmalısına böyük ehtiyac və tələbat var. Bu gün dünyada ən böyük və ən nüfuzlu beynəlxalq təşkilat BMT-dir. Azərbaycanın isə BMT-ni idarə etmək təcrübəsi var, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib və BMT Təhlükəsizlik Şurasına sədrlik edib. Belə bir təşəbbüsün irəli sürülməsi və dəstəklənməsinə nail olunması BMT-nin fəaliyyətinə dərindən bələd olan Azərbaycanın və onun siyasi rəhbərliyinin məntiqi, düşünülmüş addımı kimi qiymətləndirilməlidir. O da təsadüfi deyil ki, Bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət yenə də destruktiv davranışı ilə özü-özünü artıq dünyada biabır etmiş Ermənistan olub. Bütün dünya COVİD-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi.

# İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar

Bbərpa-konservasiya işləri birinci xanım Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilib.

İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar. AZƏRTAC xəbər verir ki, UNESCO-nun Dünya Mədəni İrsi Siyahısına daxil olunan, xalqımızın qədim və zəngin tarixini sübut edən İçərişəhərdə birinci xanım Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa-konservasiya işləri Qoşa Qala qapılarını da əhatə edib.



Bu qapılar sonuncu dəfə 1956-1957-ci illərdə təmir edilib. Mütəxəssislərin 2 il əvvəl apardığı müşahidələrin nəticəsinə əsasən abidədə həm daxildən, həm də xarici tərəfdən çatlar, deformasiyalar aşkar olunub. Qoşa Qala qapılarının və qala divarlarının Əziz Əliyev küçəsinə bitişik hissəsinin bərpa və möhkəmləndirmə işləri 2018-2019-cu illərdə həyata keçirilib. Görülən işlər nəticəsində bu qapıların tağlı keçidlərinin hörgüsü möhkəmləndirilib, gözətçi qülləsinə qalxan yollar və pillələr, qala divarının bu hissədən keçən "əsgər yolu" bərpa edilib.

Dövlətimizin başçısına və birinci xanıma "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda bu il görülən və gələn il icra olunacaq işlər barədə məlumat verildi.

Bildirildi ki, burada uşaq əyləncə və idman meydançası yaradılıb. İçərişəhərdə XV əsr abidəsi olan "Buxara" karvansarasına bitişik ərazidə yardımçı sahə kimi istifadə edilən binada "Sənət və sənətkarlıq" adlı ənənəvi sənət mərkəzinin yaradılması planlaşdırılır. Paytaxtda ilk olaraq belə bir mərkəzin yaradılmasında məqsəd Azərbaycanda yaşayıb-yaradan çox sayda istedadlı sənətkarı bir araya gətirərək, onların əl işlərinin satışı və sərgilənməsi, ustad dərslərinin keçirilməsi üçün vahid məkanın qurulmasıdır. Bundan başqa, "İçərişəhər" sərgi qalereyasının da yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya 2018-ci ildən Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "İstedArt" layihəsi barədə də məlumat verildi.

Qeyd edildi ki, layihə Bakı şəhərində, eləcə də ətraf qəsəbə və kəndlərdə yerləşən sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olan uşaqlar üçün 10 internat məktəbini və Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin uşaq və yeniyetmələrini əhatə edir. İndiyədək layihədə 154 istedadlı uşaq və yeniyetmə iştirak edib. İndi layihənin 5-ci mövsümünə hazırlıq gedir. Növbəti mərhələyə 23 uşaq cəlb edilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid Yeraltı hamama baxdılar.

Məlumat verildi ki, hamamın konservasiya-bərpa işləri iki il ərzində həyata keçirilib. Burada aparılan işlər zamanı xeyli sayda arxeoloji tapıntı da üzə çıxıb. Hamamda ümumilikdə 85 artefakt aşkarlanıb. Bütün Şərq hamamlarında olduğu kimi, temperatur rejiminin saxlanılması məqsədilə bu hamamın da yarısı yerin altında, yarısı isə üstündə inşa olunub. Buna görə də hamamın içi qışda isti, yayda isə sərin olurdu. Hər bir hamamda olduğu kimi, bu hamamın da qazanxana binası var.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qazanxana binasına baxdılar.

Qeyd edək ki, burada ən maraqlı məqamlardan biri də yeraltı yolların olmasıdır. Ümumilikdə, İçərişəhərdə bir neçə hamam olub. Onların arasında Şirvanşahların sarayı, Qasım bəy, Hacı Bani, Yeraltı, Ağa Mikayıl və Ağa Zeynal hamamları İçərişəhərdə bu günədək qorunan tarixi abidələrdir.

İçərişəhərdə XVII-XVIII əsrə aid Bakı Xanlarının Evi və ya Bakı Xan Sarayı Kompleksi də Qoşa Qala qapılarının yaxınlığında yerləşir. Kompleksdən xanlığın sonrakı hakimləri tərəfindən 1806-cı ilədək iqamətgah kimi istifadə olunub. Onun tərkibinə yaşayış binaları, Xan bağı, Yeraltı hamam, Orta əsrə aid ovdan, duluşçuluq emalatxanasının qalıqları, suarıtma sistemi, Xan məscidi daxildir. Burada bərpa və konservasiya, həmçinin abadlıq işlərinə 2018-ci ilin sentyabrından başlanılıb.

Ərazidə "Baqqal" suvenir və ənənəvi sənətkarlıq nümunələrinin sərgi və satış qalereyası, Kitab evi və milli yeməklərin təqdim olunduğu kafe də var.

Bakı Xan Sarayı Kompleksinin ətraf ərazisində gözəl park salınıb. Bu park şübhəsiz ki, paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli istirahət məkanlarından biri olacaq.

Bakı şəhərinin tarixində əhəmiyyətli yeri olan Bakı Xan Sarayı yaxın gələcəkdə əsaslı yenidənqurma, konservasiya və bərpa işlərindən sonra muzey şəklində ictimaiyyətə təqdim ediləcək. Burada qədim Bakının tarixi müasir, dinamik və rəqəmsal formada canlandırılaraq geniş ziyarətçi kütləsinə nümayiş olunacaq. Muzeydə audiobələdçilər, virtual reallıq texnologiyasının imkanlarından istifadə olunmaqla ayrı-ayrı mövzular üzrə ayrılmış otaqlarda tarixi keçmişi əks etdirən bədii-tarixi və animasiya filmləri təqdim ediləcək. Hazırda layihə üzrə işlər davam etdirilir və onun açılışı 2020-ci ilin sonuna planlaşdırılır. Burada aparılan işlər "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir.

Bakı Xan Sarayı Kompleksinin bir hissəsi olan Xan məscidinin binası İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin istifadəsinə verilib. Mərkəz 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə təsis edilib. Mərkəzin binasında keramika, batika, zərgərlik, taxta və dekorativ rəngkarlıq kimi 4 fərqli dekorativ tətbiqi sənət növünü özündə birləşdirən "DASTAN" milli brendinin yeni şourumu və İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi tərəfindən ustad dərslərinin keçirilməsi, əl işlərinin satışı və sərgilənməsi üçün vahid məkan yaradılıb.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdilər.



# Prezident İlham Əliyev: “Sosial sahədə heç bir ixtisar olmayacaq”

Mən demişəm ki, sosial sahədə heç bir ixtisar olmayacaq. Hesab edirəm ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır.

Bu barədə Prezident İlham Əliyev Gəncə şəhərində modul tipli xəstəxananın açılışından sonra bir qrup tibb işçisi ilə görüşündə bildirib.

Keçən il çox böyük sosial paketin tətbiq olunduğunu xatırladan dövlətimizin başçısı deyib: “Minimum əməkhaqqı orta hesabla iki dəfə, minimum pensiya 70 faiz artdı. Müavinətlər 50 faiz, 100 faiz artdı. Problemli kreditlər kompensasiya şəklində insanlara maddi hədiyyə olaraq verildi. Yəni, bu məqsədlər üçün milyardlarla manat xərcləndi. Pandemiyaya qarşı mübarizə üçün 3 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bu vəsaitin bir hissəsi xərcləndi və biz yeni avadanlıqlar alırıq. İndi 23 laboratoriyamız var. Amma, eyni zamanda, problem ondadır ki, artıq fevral, mart aylarında sifariş edilmiş avadanlıqlar, hansısa cihazı biz bəzən ala bilmirik. Çünki bunu istehsal edən ölkələr onu satmır, özləri üçün saxlayırlar. Pr oblem bundadır”.

Dövlət tərəfindən atılmış addımlar əgər ictimaiyyət tərəfindən dəstəklənməsə, bunun xeyri olmayacaq

Prezident İlham Əliyev qeyd edib ki, biz yaranmış vəziyyətdən şərəflə çıxmağa çalışmalıyıq. “Ancaq dövlət tərəfindən atılmış addımlar əgər kütləvi surətdə ictimaiyyət tərəfindən dəstəklənməsə, bunun xeyri olmayacaq. Dəstək isə nədən ibarətdir? Sadəcə olaraq, üç adi qaydanı gözləmək, buna əməl etmək və məsuliyyət, nizam-intizam göstərmək. Biz birlik, həmrəylik nümayiş etdirmişik. Çətin vəziyyətdə olan insanların problemlərini həll edirik, o cümlədən ictimai təşkilatlar, Heydər Əliyev Fondu. Əlbəttə ki, əsas yük dövlətin üzərindədir. Aztəminatlı təbəqəyə yardımlar edilir. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna sahibkarlar, ayrı-ayrı adamlar tərəfindən 100 milyon manatdan çox vəsait daxil edilib. Bu, böyük vəsaitdir və həmrəyliyin təzahürüdür. Necə ki, həmrəylik, birlik göstəririk, məsuliyyət də göstərməliyik. Bunu inkişaf etmiş bir neçə ölkənin liderləri qeyd edir ki, bu, müharibədir və burada düşməni görmək mümkün deyil. Eyni zamanda, bilmək mümkün deyil, bu müharibə nə vaxt bitəcək. Bunu heç kim deyə bilməz. İndi əlbəttə ki, hər kəs peyvəndi gözləyir, o cümlədən də biz. Amma bəzi həkimlərin fikrinə görə, peyvənd də bəlkə bu koronavirusu tam məhv edə bilməyəcək. Kim bilir? Bu peyvənd hələ icad edilməyib. Hələ bunun üzərində iş aparılır. Amma yoluxanların sayı artır, beləliklə, təhlükə də artır. Ona görə burada ancaq və ancaq vətəndaşların məsuliyyəti ön planda olmalıdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Mehriban xanım Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib



**Mehriban Əliyeva:**
Ölkəmizin bütün hərbi qulluqçularını və veteranlarını təbrik edirəm! Hər kəsə möhkəm cansağlığı, Vətənimizə - sülh və əmin-amanlıq arzulayıram!

Поздравляю всех военнослужащих и ветеранов нашей страны! Желаю каждому крепкого здоровья, нашей Родине - мира и благополучия!

# 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü

1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşamasına baxmayaraq, ölkədə çox böyük işlər görmüşdür. Bu işlərdən biri də ordu quruculuğu sahəsində görülən tədbirlərdir. Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yarandı. Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Az bir vaxt ərzində Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olundu.

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən həmin fərman qüvvədən düşürülmüş və 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

Azərbaycan Ordusunun bütün heyətini, qazilərimizi, müharibə veteranlarımızı 26 iyun - Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətlərində hər birinə uğurlar arzulayırıq!

# Ermənistan Baş naziri Nikol Paşinyan koronavirus pandemiyası dövründə vətəndaşların sosial-iqtisadi problemlərini həll etməkdə ciddi çətinliklərlə qarşılaşır

Pandemiya dövründə Ermənistanda acınacaqlı bir vəziyyət yaranıb və proses nəzarətdən çıxıb. Ermənistan Baş naziri Nikol Paşinyan koronavirus pandemiyası dövründə vətəndaşların sosial-iqtisadi problemlərini həll etməkdə ciddi çətinliklərlə qarşılaşır, xəstəliyin yoluxma sayının artmasının qarşısını ala bilməməsi səbəbilə sürətlə sosial dayaqlarını itirir. Azərbaycan Əhalisi 10 milyon 140 min nəfər olan Azərbaycanda yeni növ koronavirusa (COVID-19) yoluxma 10 min 991 nəfərdirsə, əhalisi cəmi 2 milyon 961 min nəfər olan Ermənistanda bu göstərici 18 min 33 nəfərə çatıb. Hazırda Azərbaycanda virusa yoluxma ilə əlaqədar müalicə alanların sayı 4 min 783 nəfərdirsə, Ermənistanda 8 min 52 nəfər müalicə olunur. Əgər Azərbaycanda koronavirusa yoluxanlardan 133 nəfər vəfat edibsə, Ermənistanda bundan 2 dəfədən də çox - 302 nəfər ölüb. Test sayına





baxsaq, Azərbaycanda aparılan testlərin sayı Ermənistanla müqayisədə 4 dəfədən çoxdur. Ölkəmizdə indiyə qədər 397 min 399, Ermənistanda 87 min test aparılıb. Azərbaycanın pandemiyaya qarşı ümumi xərcləri 3,5 milyard manat olubsa, Ermənistanda bu rəqəm cəmi 300 milyon dollardır. Təkcə onu demək kifayətdir ki, hazırda Azərbaycanda 570 xəstəxana (44 min 45 ədəd çarpayı), Ermənistanda isə 130 xəstəxana (12153 ədəd çarpayı) var.

Yardımlarla bağlı statistikaya baxsaq, pandemiyaya qarşı mübarizə çərçivəsində ABŞ Azərbaycana 5,3 milyon dollar, Avropa Birliyi 14 milyon avro yardım edib, Türkiyə humanitar, Çin tibbi-texniki yardım edib. Ermənistana isə ABŞ 5,4 milyon dollar, Avropa Birliyi 92 milyon avro, Bolqarıstan və Litva humanitar yardım, Çin tibbi-texniki yardım, Rusiya texniki yardım, Gürcüstan tibbi yardım göstərib, İran yük daşınmasında dəstək verib. Digər tərəfdən, əgər Ermənistan bu günə qədər pandemiya ilə mübarizə çərçivəsində heç bir ölkəyə yardım etməyib. Azərbaycan isə Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar, İrana 5 milyon dollar, eyni zamanda Çin, İran, İtaliya, Macarıstan, Özbəkistan, Bosniya və Herseqovina, Xorvatiya, Qırğızıstan, Pakistan, Moldova olmaqla, cəmi 30 ölkəyə yardım edib. Bunun özü də Ermənistanın xarici yardıma möhtac ölkə olduğunu və beynəlxalq aləmdə də belə qəbul edildiyini ortaya qoyur. Bir maraqlı məqam da diqqət çəkir. Pandemiya dövründə Azərbaycanda abonentlərin elektrik və qazının kəsilməsi halı qeydə alınmayıb. Amma 4300 abonentin elektrik enerjisi, 736 abonentin təbii qazı kəsilib.

Pandemiya dövründə Ermənistanda yaranmış acınacaqlı vəziyyəti Ermənistanın Baş Naziri Nikol Paşinyanın “Facebook” səhifəsində etiraf edib. N.Paşinyan ölkədə xəstəlik simptomlarını biruzə verməyən minlərlə xəstə olduğunu, yoluxma halları artdıqca səhiyyə sisteminin bunun öhdəsindən gələ bilməyəcəyini və xüsusilə ağır vəziyyətdə olan xəstələrin sağlamlığının təhlükə ilə qarşılaşacağını, xəstəxanalarda yer olmayacağını bildirib: “Ermənistanda hər gün 500-700 arası insan koronavirusa yoluxur. Onların 5 faizi ağır keçirir, bu, olduqca ciddi rəqəmdir və səhiyyə bu qədər insana xidmət edə bilmir. Təsadüfi deyil ki, Ermənistanda koronavirus pandemiyasının geniş yayıldığı son günlərdə KİV-də Baş Nazir Nikol Paşinyan hədəf olaraq seçilib və onun məsuliyyət daşıdığı bildirilir. Bu xəbərlərdə əsasən pandemiyanın ilk ayında Paşinyanın məsələyə münasibəti xüsusən tənqid olunur. Qeyd edilir ki, Ermənistan müstəqilliyini elan edəndən bu günə qədər bütün demokratiya çağırışlarına baxmayaraq, qərarları bir nəfər - prezident, indi isə Baş Nazir Paşinyan verir, kollektiv qərar vermə mexanizmi ölkədə heç bir zaman olmayıb. Böyük bir ehtimalla yaxın gələcəkdə Paşinyan siyasi məsuliyyəti Baş nazirin müavini Tiqran Avinyana və Səhiyyə naziri Arsen Torosyana yükləyəcək. Mart və aprel aylarında qonşu ölkələr pandemiyaya qarşı tədbirlər alarkən Paşinyanın başı siyasi rəqibi Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanı vəzifəsindən uzaqlaşdırmaq üçün konstitusiya referendumu keçirməyə qarışmışdı. Paşinyan koronavirusa qarşı “Koronavirus kimin itidir?”, “Maska taxmağa ehtiyac yoxdur” kimi məsuliyyətsiz ifadələrdən istifadə edirdi.

# Azərbaycan Prezidentinin hərbi hissələrdə ideoloji tərbiyənin yüksək səviyyədə təşkil olunması ilə bağlı tapşırığı böyük önəm kəsb edir

**(Əvvəli səh. 1-də)**

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, 15 il əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Azərbaycanda heç vaxt hərbi sənaye yox idi. Əgər bunu yaratmasaydıq, bu gün böyük problemlərlə üzləşə bilərdik. Amma indi nəinki özümüzü bir çox hərbi təyinatlı məhsullarla təmin edirik, ixrac da edirik və ixrac coğrafiyamız artıb, onlarla ölkəyə hərbi məhsul ixrac edirik: "Heç 15 il bundan əvvəl bu haqda fikirləşmək də əbəs idi. Onu kimsə desəydi, bəlkə də inanmazdınlar. Amma bu, reallıqdır. Reallığı biz yaradırıq, öz əllərimizlə, öz gücümüzlə, öz iradəmizlə.

Ona görə bütün bu amillər - orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika ilə təchizatı, bir də əlbəttə ki, döyüş qabiliyyətinin artırılması, bax, bunlar bu əsas amillərdir. Əlbəttə ki, vətənpərvərlik. Ona görə hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik daşıyır ki, bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda böyüsünlər, müstəqilliyin qədrini bilsinlər. Bilsinlər ki, müstəqillik bizə asan başa gəlməyib. Bilsinlər ki, bu gün müstəqilliyi qorumaq, onu möhkəmləndirmək bir çox ölkələr üçün böyük məharət tələb edir".

Bu baxımdan, Azərbaycan Prezident qeyd edib ki, bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir, ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır, çünki biz real tariximizi bilməmişik.

Bununla yanaşı, dövlət başçısı vurğulayıb ki, günah da bizdə deyil, çünki belə oxumuşuq, bizə belə dərs veriblər, sovet vaxtında tarix dərslərinin çoxu saxta idi və Azərbaycan xalqının düşmənləri qəhrəman kimi qələmə verilirdi. Eyni zamanda, Prezident İlham Əliyev bildirdi ki, quldur 26 Bakı komissarı dəstəsi və o dəstənin başında dayanan cinayətkar erməni millətçiləri qəhrəman kimi təqdim olunurdu, onların adına rayonlar verilirdi, onlara abidələr qoyulurdu: "Azərbaycan xalqının cəlladı Şaumyana abidə qoyulmuşdu, onun adı əbədiləşdirilmişdi. Biz bu tarixi görmüşük. Yenə də günah bizdə deyil. Sovet hakimiyyətinin tarixi bu idi. Müstəqilliyi quranlar düşmən kimi qələmə verilirdi. Azərbaycan Xalq Cümhuriyyəti antimilli qurum kimi qələmə verilirdi. Ancaq bizim müstəqilliyimizi əlimizdən alanlar, yerli satqınlar qəhrəman kimi qələmə verilirdi. Küçələrə onların adları verilir, onlara abidələr, monumentlər qoyulurdu. Bəlkə də yaddan çıxıb, Sahil bağında 26 Bakı komissarlarına abidə qoyulmuşdu. Mən fikirləşdim ki, bu, nə məsələdir. Bunlar Azərbaycan xalqının qanını axıdıblar, bizi məhv ediblər. Heç şəhərin mərkəzində belə abidəmi olar? O abidə də və o quldur dəstəsinin üzvlərinin abidələri də söküldü və düz də etmişəm. Bütün dini ayinləri gözləmək şərti ilə onların qəbirləri oradan köçürüldü. Ancaq bu, dözülməz idi ki, şəhərimizin mərkəzində Azərbaycan xalqının düşmənlərinə abidə ucaldılıb".

Ali Baş Komandan İlham Əliyev bir daha qeyd edib ki, gənclərimiz bu tarixi, qədim tariximizi bilməklə yanaşı, eləcə də bilməlidirlər ki, bugünkü Ermənistan Azərbaycan torpaqlarında formalaşıb: "bugünkü Ermənistan xəritəsində coğrafi toponimlərin əsl adlarını bilməlidirlər. Mən gedirəm, haradasa xəritədə sonra dəyişdirilmiş erməni adlarını görürəm. Bütün yerli icra orqanlarına irad tuturam ki, bilmirsiniz, gedin soruşun. Fikirləşin nə yazırsınız, axı, bunun qədim Azərbaycan adı var. Bu, bizim torpağımızdır. Ona görə, bu sahəyə xüsusi diqqət göstərməliyik. Orduda xidmət edən hər bir gənc tərxis olunandan, mülki həyata qayıdandan sonra öz tarixini olduğu kimi bilməlidir".

Həm 2016-cı ilin, həm 2018-ci illərin hərbi əməliyyatlarını vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Ordusu böyük ərazini işğalçılardan azad etdi və o torpaqlara bayrağımız dalğalanır. Eyni zamanda, dövlət başçısı vurğuladı ki, uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazini işğalçılardan azad etmişik və strateji yüksəkliklərə çıxmışıq, eləcə də Ermənistandan Dağlıq Qarabağa gedən yol bizim gözümüzün qabağından keçir.

Bu səbəbdən, Ali Baş Komandan İlham Əliyev qeyd etdi ki, hər an ərazi bütövlüyümüzü bərpa etməyə hazır olmaq üçün döyüş qabiliyyətinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır: "Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və ediləcək, heç kimdə bu haqda şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq. Geosiyasi vəziyyətə daim nəzarət etməliyik. Beynəlxalq müstəvidə dəyişən vəziyyəti düzgün təhlil etməliyik və beynəlxalq aləmdə daha çox dost toplamalıyıq. Biz bunu da edirik. Bu gün beynəlxalq aləmdə Azərbaycanla dostluq edən ölkələrin sayı gündən-günə artır".

Bununla yanaşı, işğal edilmiş torpaqlarda bu gün ermənilər tərəfindən qanunsuz məskunlaşma siyasətinin aparıldığını beynəlxalq tədbirlər çərçivəsində diqqətə çatdıran Prezident İlham Əliyev bildirdi ki, sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşü çərçivəsində, eləcə də bütün beynəlxalq təşkilatlarda, bu məsələni qaldırırıq və qaldıracağıq: "Qanunsuz məskunlaşmaya son qoyulmalıdır. Beynəlxalq ictimaiyyəti buna çağırırıq.

Minsk qrupunun həmsədrlərinin bu məsələyə xüsusi diqqət yetirməyini istəyirik ki, bu qanunsuz məskunlaşma dayansın. Çünki Ermənistanın siyasəti bundan ibarətdir. Onlar bizim şəhərlərin adlarını dəyişdiriblər. Əvvəlcə indiki Ermənistan ərazisində, indi isə Dağlıq Qarabağda və ətraf bölgələrdə. Orada yeni dırnaqarası sərhədlər çəkiblər, bizim tarixi keçmişimizi, məscidlərimizi məhv ediblər, tarixi abidələrimizi, torpaqlarımızı erməniləşdirmək istəyirlər. İndi qanunsuz məskunlaşma aparmaq istəyirlər, ancaq onlarda insan resursu olmadığı üçün çətinlik çəkirlər. Amma yenə də diaspor fəaliyyəti nəticəsində buna çalışırlar". Dövlət başçısı vurğuladı ki, Azərbaycan buna imkan verməyəcək, bunu hər kəs bilsin, münaqişə ilə bağlı mövqeyimizdə möhkəm dayanmışıq və bir addım geri atmayacağıq.

Eyni zamanda, Prezident İlham Əliyev bildirdi ki, beynəlxalq təşkilatlar indi ərazi bütövlüyü prinsipini xüsusilə qeyd edirlər, xüsusilə Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşündə çıxış edənlərin, dünya liderlərinin bir çoxları bu məsələyə aydınlıq gətiriblər. Qeyd olunub ki, ərazi bütövlüyü prinsipi insanların, xalqların öz müqəddəratını təyin etmək prinsipindən üstündür və heç kimin bu haqda şübhəsi olmasın. Dövlət başçısı bir daha qeyd etdi ki, Ermənistana və Dağlıq Qarabağ məsələsinə gəldikdə isə, öz müqəddəratını müəyyənetmə prinsipi işləmir, çünki erməni xalqı öz müqəddəratını bir dəfə müəyyən edib, Azərbaycan torpağında yaradılmasına baxmayaraq onların erməni dövləti var və Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına biz heç cür imkan verə bilmərik: "Ancaq bir daha demək istəyirəm ki, ərazi bütövlüyü prinsipi bu gün üstünlük təşkil edir. Ona görə bizim mövqeyimiz beynəlxalq hüquq, tarixi ədalət baxımından mükəmməldir. Əlbəttə ki, münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır. Ancaq bayaq qeyd etdiyim kimi, dünyada güc amili ön plana çıxır və biz bu gücü toplamalıyıq, məsələni istənilən yolla həll etməliyik".

Artıq dərin böhran içində olmaqla yanaşı, həmçinin Ermənistanın müstəqillik tarixinin prinsipcə rüsvayçılıq tarixi olduğunu bildirən Prezident İlham Əliyev 1998-ci ildən 2018-ci ilə qədər Ermənistana rəhbərlik etmiş şəxslərin cinayətkar kimi bir çoxunun həbs edildiyini vurğulayıb: "Yaxşı, baxaq görək, 2018-ci ildən bu yana nə baş verib. Guya orada demokratik inqilab olub. Hamısı yalandır. O pullar oraya haradan axıdılıb, biz bunu bilirik, yəqin ki, erməni xalqı da bilir. İndiki hakimiyyət hansı xarici dairələrdən idarə olunur, bunu hər kəs bilir. Sadəcə olaraq, indiki rəhbərlərin tərcümeyi-halına baxın, görün bunlar hansı fondlarda işləyiblər, kimdən pul alıblar. Postsovet məkanında həmin dırnaqarası inqilabları, əslində, qanlı çevrilişləri təşkil edənlər indiki Ermənistan rəhbərlərinin himayədarlarıdır. Onları idarə ediblər və əlbəttə ki, xalqda o çirkin kriminal, xunta rejiminə nifrət böyük idi. Ondan istifadə edib hakimiyyəti zəbt ediblər. Ondan sonra nə baş verir? Ondan sonra hazırda Ermənistanda artıq diktatura hökm sürür. Bu, qaçılmaz faktdır. Onlarda təqribən bir il bundan əvvəl həbsdə olan bir jurnalist axıra qədər acliq elan edir və ölür. Heç bir beynəlxalq təşkilat, Avropa Şurası, ATƏT-in mətbuat üzrə xidməti bir səs belə çıxarmırlar. Nə üçün? Çünki bilirlər ki, indiki Ermənistanın rəhbərləri kimdir".

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistanda hakimiyyət bölgüsü tamamilə pozulub, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə-hüquq sahəsi artıq bir adamın əlindədir, bir alətdir və ona görə Ermənistanda diktatura hökm sürür və bu, nə qədər belə çox davam edərsə, orada problemlər böhranlı həddə bir o qədər tez çatacaq: "İndi Avropa İttifaqından 90 milyon dollar pul dilənir, ondan-bundan dilənir. Deməli, demoqrafik böhran yaşanır, insanlar bu ölkəni tərk edir və təbii azalma gedir. İndi Ermənistanın real əhalisi 2 milyon nəfərdən azdır. Bunu mən bilirəm və Ermənistan rəhbərliyi bilir. Bir də ki, bu ölkə qonşulara - özü də kimə, Türkiyə kimi böyük bir ölkəyə ərazi iddiaları irəli sürür. Dırnaqarası soyqırımı ilə bağlı Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürülür. Heç bir soyqırımı olmamışdır. Ermənilər həm 1918-ci ildə, həm də Xocalıda bizə qarşı soyqırımı törətmişlər. Ona görə belə bir idia ilə yaşayan ölkənin gələcəyi çox qaranlıqdır".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan hər sahədə, beynəlxalq müstəvidə güclənir, güclənməlidir - ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq.

Bütün bunlar onu söyləməyə əsas verir ki, müstəqil xarici siyasət yürüdən Azərbaycanla təcavüzkar, eləcə də faşist ideologiyası yürüdən, terrorizmi dövlət səviyyəsində dəstəkləyin Ermənistanı heç bir sahədə müqayisə etmək olmaz. Qeyd etmək lazımdır ki, son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar beynəlxalq münasibətlər sistemində davam edən gərginlik, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələr, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti daha da kəskinləşdirib. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu baxımdan, müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanıb. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

Dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcək.

# Avropa Komissiyasının sədri Azərbaycanın uğurlarına heyran olduğunu bildirib



2016-2019-cu illərdə Avropa İttifaqı ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi 55 faiz artıb.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen bu sözləri Aİ üzvü və Aİ-nin "Şərq tərəfdaşlığı" proqramının iştirakçısı olan ölkələrin dövlət başçılarının dünən keçirilmiş birgə sammiti başa çatandan dərhal sonra jurnalistlər üçün brifinqdə söyləyib.

Siyasətçi deyib: "Biz davamlı Şərq Tərəfdaşlığının yaradılmasında fəal iştirak edirik. Bu halda davamlılıq dedikdə iqtisadi tərəqqi, sabitlik və təhlükəsizliyi nəzərdə tuturuq".

Onun sözlərinə görə, Avropa İttifaqı layiqli iş yerləri açan, ölkələr arasında əlaqələri yaxşılaşdıran və xüsusən gənclər üçün yeni imkanlar yaradan iqtisadiyyata yönəlmiş tərəfdaşlığı təmin etməyə çalışır.

Avropa Komissiyasının sədri deyib: "2016-2019-cu illərdə ticarətin dinamikasına nəzər salsaq, aşkar görünür ki, Aİ ilə bizim "Şərq tərəfdaşlığı" üzrə altı tərəfdaşımızın hər biri arasında qarşılıqlı ticarətin həcmi əhəmiyyətli dərəcədə çoxalıb. Məsələn, Azərbaycanla Aİ arasında ticarətin həcmi 55 faiz, Ukrayna ilə Aİ arasında ticarətin həcmi 50 faiz artıb. Bundan əlavə, regiondaxili ticarətin həcmində iki dəfədən çox artım müşahidə olunur".

XOCAVƏND

# "Əsgərə xatirə kitabı" layihəsi çərçivəsində "Ordu ilə xalqın birliyi sarsılmazdır" devizi altında videokonfrans formatında tədbir keçirilmişdir



25 iyun 2020-ci il tarixində "Əsgərə xatirə kitabı" layihəsi çərçivəsində Silahlı Qüvvələrin Yaranması Günü münasibətilə "Ordu ilə xalqın birliyi sarsılmazdır" devizi altında videokonfrans formatında tədbir keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları Arzu Nağıyev, Cəbi Quliyev, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın və "Virtual Qarabağ" İKT Gənclər İctimai Birliyinin sədri Nurəddin Mehdiyev, Azərbaycan Qarabağ müharibəsi Əlilləri , Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sədri Mehdi Mehdiyev, Caspian GSM şirkətinin təsisçisi, gənc sahibkar Vüsal Nərimanov, 2 nömrəli THE liseyinin müdir müavini,"Əsgərə xatirə kitabı" layihəsinin rəhbəri Nuranə Şıxəliyeva , 2 nömrəli THE liseyinin müəllimi, Azərbaycan dili kafedrasının müdiri Ellada Həziyeva, şəhid ailələri və qazilər iştirak ediblər. Tədbirdə çıxış edənlər Milli Ordumuzun yaranması tarixindən söhbət açmışlar. Xatırladılıb ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edilib. Azərbaycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordu yaradılması Ulu Öndərin adı ilə bağlıdır. Hələ sovet dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtlarda, 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb açılıb. Məhz Ümummilli Liderin sayəsində ordu quruculuğu sahəsində genişmiqyaslı islahatlar həyata keçirilib, peşəkar, yüksək səviyyəli nizami ordu formalaşdırılıb.

Həmçinin qeyd edilib ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz uzaqgörən rəhbərin gərgin zəhmətinin bəhrəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib və hər an düşmənə layiqli cavab vermək əzmindədir. Ölkə rəhbərinin iştirakı ilə Silahlı Qüvvələrimizin möhtəşəm hərbi paradı, Milli Qəhrəman Mübariz İbrahimovun şücaəti, Aprel döyüşləri, Günnüt zəfəri Milli Ordumuzun gücünün və qüdrətinin göstəricisidir.

Tədbir iştirakçıları Azərbaycan Ordusunun güc və qüdrətinin təbliği, Vətənə məhəbbətin tərənnümü, həmçinin gənc nəslin vətənpərvərlik ruhunda yetişməsi istiqamətində hər bir vətəndaşın üzərinə böyük vəzifələr düşdüyünü vurğulayıblar.

Tədbirin sonunda Şəhid ailələrinə Rayon İcra Hakimiyyəti başçısının təbriknaməsi, tədbirin təşkilatçılarına isə "Fəxri Fərman"ı təqdim edildi.

# Qərb niyə susur?




Ermənistanda baş verən siyasi təqiblər və həbslər, söz azadlığının boğulması, jurnalistlərə qarşı güc tətbiq edilməsi fonunda bəzi beynəlxalq təşkilatların, beynəlxalq QHT-lərin, ümumən bir sıra Qərb təşkilatlarının səssizliyi heyrət doğurur. Q.Sarukyanın tərəfdarlarının etiraz aksiyası zamanı insanların ifadə azadlığı, azad toplaşma hüququ, hüquq-mühafizə orqanları tərəfindən lüzumsuz yerə güc tətbiq olunmaması, KİV-in sərbəst fəaliyyətinə imkan yaradılması və s. kimi Qərbin "önəm verdiyi" bütün dəyərlər ayaq altına salınmışdır. Sual yaranır. Qərb niyə susur? ABŞ Dövlət Departamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi, ABŞ-ın Ermənistandakı səfiri, Qərb ölkələrinin Ermənistandakı səfirlikləri özlərini elə aparırlar ki, sanki heç nə baş verməyib. Əlbəttə bu ilk hadisə deyil ki, Qərb özünü görməməzliyə vurub.

Qərbin ikili standartlarının ən bariz nümunəsi Ermənistanda keçirilmiş seçkilərə reaksiyalarıdır. 2017-ci ildə Ermənistanda parlament seçkiləri keçirildi. Seçkiləri müşahidə edən Qərb təşkilatlarının rəyində Ermənistanda bütün başlıca azadlıqlara əməl edildiyi göstərilmişdi. Lakin az sonra Ermənistanda inqilab baş verdi və seçkiləri uduzmuş indiki baş nazir hakim partiyanı devirdi.

Qərb ölkələrinin Paşinyan rəhbərliyini bu qədər müdafiə etməsi, ölkədə baş verən qanunsuzluqlara, anti - demokratik fəaliyyətlərə göz yumulmasının səbəbi ortadır. Qərb Ermənistanı öz geosiaysi maraq dairəsində görür. Ermənistanda Paşinyan komandasının hakimiyyətə gəlməsi və "Qərbyönümlü siyasət" aparması Qərb üçün əlbəttə tarixi bir şansdır. Rusiya ilə aparılan tarixi rəqabət və bölgəyə nüfuz etmək istəyi fonunda Ermənistanda baş verənlərə susqunluqla yanaşmaq, Ermənistanın hər cür ərkəsöyünlüyünə göz yummaq təəccüb doğurmur. Nikol Paşinyanın amerikalı iş adamı Corc Sorosun təsis etdiyi Soros Açıq Cəmiyyəti tərəfindən dəstəkləndiyi hər kəsə aydındır. Ermənistanda anti-sorosçuların həbsi dediklərimizin bariz nümunəsidir.

Qərbin bir sıra təşkilatları Azərbaycanda ən xırda məsələyə reaksiya verdikləri halda, Ermənistanda baş verən qanunsuzluğa qarşı bir dəfə də olsun hansısa ittiham səsləndirməyiblər. Həm bölgənin, həm də Avropanın təhlükəsizliyində iştirak edən və töhvə verən ölkə kimi Azərbaycansız Qafqazın və Avropanın gələcəyini necə təsəvvür etmək olar? Bu sual Qərbin siyasi dairələrini düşündürməlidir.

# Ermənistanda siyasi böhran dərinləşir

Nikol Paşinyan hakimiyyəti "döyüş hazırlığı" vəziyyətinə gətirib. Ermənistan mediasındakı məlumatlarda bildirilir ki, güc strukturlarının rəhbərlərini dəyişdikdən sonra baş nazir Paşinyan bu idarələrin rəhbərlərinə cəmiyyətə əvvəlki etimadı bərpa etmək üçün bəzi müsbət göstəriciləri göstərməyi tapşırıb. Üstəlik, onlara xəbərdarlıq edilib ki, kimsə öz oyununu oynamağa çalışırsa, dərhal əvvəlki rejimin qalıqlarından yaxa qurtarıldığı kimi onlar da uzaqlaşdırılacaqlar.

Bununla Paşinyan siyasi rəqiblərinə qarşı növbəti dözümsüzlük toxumlarını da səpib. Ən başlıcası, hər şeyin baş nazirlə şəxsən razılaşdırılması, onun xəbəri olmadan heç bir şey edilməməsi və onun göstərişlərinin yerinə yetirilməsindən yayınanların işdən uzaqlaşdırılması tapşırılıb.

İyunun 8-də Ermənistan daxilində bomba effekti yaradan istefalar yaşandı: Milli Təhlükəsizlik Xidmətinin direktoru Eduard Martirosyan, Ermənistan ordusunun Baş Qərargah rəisi general-leytenant Artak Davtyan və Polis rəisi Arman Sarkisyan eyni gündə istefa məktublarını prezident Armen Sarkisyana təqdim etdilər. Ermənistan hakimiyyəti bu istefaları Paşinyanın reytinqini yüksəltmək üçün baş nazirin şəxsi iradəsi kimi təqdim etməyə çalışır. İstefadan bir gün öncə - 7 iyunda Baş Qərargah rəisi Artak Davtyanın karantin qaydalarını pozaraq oğluna toy etməsinin görüntüləri yaymaqla Paşinyanın reytinqinə "işləyən" addım atıldı. Parlamentdə hakim partiyadan sonra ikinci böyük fraksiya olan "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Çarukyanın son dövrlər hökumətin pandemiya qarşısında aciz qalmasını əsas gətirərək, tez-tez tənqidi çıxışlar etməsi, eyni mətnli tənqidlərin üçüncü böyük fraksiya olan "İşıqlı Ermənistan" Partiyası tərəfindən də səsləndirilməsi fonunda yaşanan bu istefalar ilk baxışda Nikol Paşinyanın siyasi gediş etdiyi ehtimalını önə çıxarır: həm pandemiyanın yaratdığı böhranı istefa verənlərin üzərinə yıxmaq və şəxsi reytinqini yüksəltmək, həm də "kənar qüvvələrə" bağlı olduğunu hesab etdiyi güc strukturları rəhbərlərini istefaya göndərməklə təhlükəni özündən uzaqlaşdırmaq istəyir; hər üç istefanın dərhal qəbul edilməsi və elə həmin gün yeni təyinatların olması da - general-leytenant Onik Gasparyan Baş Qərargah rəisi, polkovnik Argişti Kərəmyan Milli Təhlükəsizlik Xidmətinin direktoru, polkovnik Vaqe Qazaryan Polis rəisi - bunu deməyə əsas yaradır; Hərçənd, burada ən diqqətçəkən məqam üç güc strukturu rəhbərinin eyni gündə istefa verməsi və bir gün sonra parlamentdə Nikol Paşinyanın istefa tələbinin gündəmə gətirilməsidir.

Güc strukturlarının eyni gündə istefa ərizəsi yazması təsadüfi deyildi. Bunun "kənar müdaxilə" ilə baş verdiyi və məqsədin Paşinyana xəbərdarlıq olduğu istisna deyil. Bir gün sonra - 9 iyunda "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Çarukyanun "hökumətin vədlərini yerinə yetirməsi üçün vaxt verildiyini, lakin ölkəyə investisiyanın gətirilmədiyini, iqtisadiyyatın inkişaf etmədiyini, koronavirusla mübarizədə də uğursuz olduğunu" əsas gətirərək, istefa tələbi ilə çıxış etməsi güc strukturlarının rəhbərlərinin istefasının davamı kimi görünür:

İyunun 14-də Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) "Çiçəklənən Ermənistan" Partiyasının lideri, oliqarx Qaqik Çarukyanın evini mühasirəyə alması siyasi böhranın fitilini alovlandırdı. Xüsusi təyinatlılar "Çiçəklənən Ermənistan" Partiyasının ofisində də axtarışlar aparıb. Çarukyan dindirilmək üçün Milli Təhlükəsizlik Xidmətinə aparılarkən bildirib ki, "geri çəkilmək niyyətində deyil". Onun tərəfdarları MTX-nin binası önündə "Nikol get", "Çarukyan baş nazirdir" şüarları ilə aksiya keçirib, hətta binaya daxil olmaq istəyərkən xüsusi təyinatlılarla qarşıdurma yaşanıb.

Paşinyanın "küçə inqilabı" ilə hakimiyyətə gələrkən əsas dəstəkçisi kimi çıxış edən və daxili siyasətdə güclənməsində payı olan Çarukyanın üzərinə xüsusi təyinatlıları göndərməsi Ermənistanda pandemiyanın yaratdığı acınacaqlı mənzərə fonunda təsadüfi deyil. 15 iyunda Çarukyan bəyanat verərək hər şeyə hazır olduğunu, hökumətin xüsusi göstərişi ilə ona qarşı təzyiqlərin başladığını, bununla pandemiya dövründə hökumətin bacarıqsızlığını gizlətməyə, xəstəliyə yoluxan on minlərlə insanın, yüzlərlə ölənlərin məsuliyyətini ört-basdır etməyə çalışdığını bildirib. Çarukyanın 2-3 aydan sonra ölkədə aclıq təhlükəsinin baş verə biləcəyini vurğulaması isə ciddi rezonans doğurub.



Paşinyanın bu addımları ölkəni sürətlə diktaturaya sürüklədiyinin göstəricisi sayıla bilərmi?

Paşinyan bu addımları təsadüfən atmır:"Onun narahatlığı aydın görünür. Paşinyan anlayır ki, artıq hakimiyyəti itirməklə üz-üzə qalıb. Eyni gündə güc strukturlarının təmsilçilərinin istefa ərizəsi yazması təsadüfi deyildi. Proseslərin kənardan idarə edildiyinə dair rəylər səslənir. Hər hardan idarə olunsa da, bunu Paşinyana verilən ciddi xəbərdarlıq mesajı kimi də qəbul edə bilərik. İstefalardan bir gün sonra isə daha maraqlı vəziyyət yarandı. 9 iyunda "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Çarukyan hökumətin vədlərini yerinə yetirməsi üçün vaxt verildiyini, lakin ölkəyə investisiyanın gətirilmədiyini, iqtisadiyyatın inkişaf etmədiyini, koronavirusla mübarizədə də uğursuz olduğunu əsas gətirərək istefa tələbi ilə çıxış etdi. Bu proseslərin bir-biri ilə zəncirvari bağlantılı olduğuna qəti şübhə yoxdur. Paşinyan görür ki, komanda üzvlərinin ona göstərdiyi etimadsızlığın fonunda Çarukyan dərhal hökumətin istefasını tələb edir. Çarukyan faktiki olaraq parlamentdə ikinci böyük fraksiyaya rəhbərlik edir. Bu da o anlama gəlir ki, artıq Paşinyan üçün mədəni devrilmə planı da hazırdır. Bir qədər də güc qoyulsa, Paşinyanı elə parlamentdə devirmək mümkün olacaq. Bütün bunları Paşinyan yaxşı dərk etdiyi üçün repressiv metodlara əl atır ki, rəqiblərini qorxuda bilsin. Əks təqdirdə onun devrilməsi daha da sürətlənə bilər. Paşinyan komandası proseslərin Rusiyadan idarə edildiyi qənaətində olduqlarına dair fikirlər səsləndirir. İnandırıcıdır, çünki Rusiyanı Paşinyanın Ermənistanda hakimiyyətdə olması qəti qane etmir".

# Xocavənd rayon İcra Hakimiyyəti yanında Operativ Qərərgahın Məlumatı

Koronavirus infeksiyasının (COVİD-19) Azərbaycanda geniş yayılmasının qarşısının alınması üçün Nazirlər Kabineti yanında Operativ Qərargahın yerlərdə tətbiq etdiyi xüsusi karantin rejimi qaydalarının mərhələli şəkildə yumuşaldılma tədbirlərindən sonra vətəndaşların böyük bir hissəsinin müəyyən olunmuş tələblərə və təcrid tövsiyələrinə riayət etməməsi səbəbindən ölkə üzrə bu infeksiyaya yoluxanların sayı kəskin artmışdır.




Bununla əlaqədar, Operativ Qərargahın müəyyən etdiyi qaydalara əsasən Xocavənd RİH başçısı yanında Operativ Qərrgah tərəfindən görülən tədbirlərin gücləndirilməsinə qərar verilmişdir.

Artıq mütəmadi olaraq mobil qruplar tərəfindən Polis orqanlarının nümayəndələri ilə birgə qida məhsullarının ticarəti ilə məşğul olan müəssisələrdə, ictimai-iaşə müəssisələrində, ictimai nəqliyyatda, müxtəlif ticarət və xidmət sahələrində tətbiq olunan tələblərə riayət edilməsinin mütəmadi olaraq monitorinqi aparılacaq, pozuntu hallarına yol verməş qurum və ya cavabdeh şəxslər barədə qanunvericiliklə müəyyən edilmiş tədbirlər görüləcəkdir.

Nəzərinizi çatdırırıq ki, ictimai yerlərdə sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtlə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) istifadə etmək vacibdir.

## 25 iyun 2020-ci il tarixində "Əsgərə xatirə kitabı" layihəsi çərçivəsində Silahlı Qüvvələrin Yaranması Günü münasibətilə tədbir keçiriləcək




## 22 iyun 2020-ci il tarixində Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə tədbir keçirilmişdir



Tədbirdə bir qrup dövlət qulluqçusu Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı , eyni zamanda Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin qiymətli xatirə hədiyyəsi və fəxri fərmanı ilə təltif olunmuşdur.

## Həsənova Xəyalə: "Dünyanın 130-dan çox dövləti Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkil olunması təşəbbüsünü dəstəklədi"



Bütün dünyada yayılmış COVİD-19 pandemiyası bizim ölkədən də yan keçmədi.Pandemiyanın başladığı ilk gündən ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizə aparmaq məqsədilə beynəlxalq həmrəyliyin möhkəmləndirilməsi və gücləndirilməsi təşəbbüsləri irəli sürüldü. Pandemiya dünyəvi problem olduğu üçün bütün dünyada insanların həyatını təhlükəyə atmaqla yanaşı, dünya iqtisadiyyatına da mənfi təsirlərini göstərmiş oldu. İnsanların həyatını təhlükəyə atan pandemiya bütün dünya əhalisinin sağlamlığına ciddi təhlükələr yaratdı. Bu pandemiyanın fəsadları görünür ki, uzun müddət insanların həyatında o cümlədən ölkə iqtisadiyyatında hiss olunacaqdır.

Bütün bu fəsad və problemləri aradan qaldırmaq üçün dünyanın qlobal həmrəyliyə ehtiyacı vardır. Azərbaycan Respublikası COVİD-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) könüllü olaraq ianələr ayırmışdır. Dövlətimiz tərəfindən 30-dan artıq dövlətə humanitar yardımlar edilmişdir.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə Görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi dünyanı bürümüş pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsi ilə xüsusi sessiyanın keçirilməsi təklifi və təşəbbüsü ilə çıxış etmişdir.Təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir.BMT-nin 130-a qədər üzv dövləti tərəfindən Qoşulmama hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimad və inamın göstəricisidir. Ölkəmizin bu təşəbbüsünü dəstəkləyən bütün ölkələrə ölkə əhalisi adından təşəkkür edirik.

Mən də bir ölkə vətəndaşı olaraq Cənab Prezidentimizə bu çətin günlərdə xalqımızın yanında olduğu üçün ona dərin ehtiram və təşəkkürümü bildirirəm.Əlbəttə ki, bu çətin günləri xalq olaraq geridə qoyacağıq.Bunun üçün həmrəylik göstərməli, dövlətin verdiyi bütün tapşırıqlara, qayda-qanunlara əməl etməliyik.Dövlətimiz bu problemdən az itkisiz ötüşmək üçün bütün bacarıq və səylərindən istifadə edir, xalqa lazımi dəstəklərini verir.Mən hər bir ölkə vətəndaşını bu pandemiya şəraitində həmrəy olmağa, dövlətimizə dəstək olmağa səsləyirəm. Çünki BİZBİRIİKDƏ GÜCLÜYÜK!

## Gültəkin Ağayeva:

## "Prezident İlham Əliyevin Baş Assambleyanın Xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsü vaxtında verilmiş və çox ehtiyac duyulan təşəbbüs kimi təqdir olunur"

Hal-hazırda dünyanın qlobal hadisəsinə çevrilən COVİD-19 pandemiyası Azərbaycandan da yan keçməyib. Dünyada COVİD-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Pandemiya insanların həyatını təhlükə altına qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaratmışdır. Dünya müharibəsi ilə müqayisə olunan COVİD-19 pandemiyası şəraitində özünü təcrid və franqmentar xarakter daşıyan tədbirlər əvəzinə qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac vardır.

Artıq hamımıza məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun videokonfrans vasitəsilə Zirvə görüşü keçirilmişdir. Zirvə görüşündə Əfqanıstan, Əlcəzair, Misir, İndoneziya, İran, Kuba, Nigeriya, Pakistan, Cənubi Afrika Respublikası, Fələstin, Türkmənistan, Venesuela, Nikaraqua, Efiopiya, Hindistan, Malayziya, Vyetnam, Qana, Küveyt, Mərakeş, Səudiyyə Ərəbistanı və digər ölkələrin prezidentləri, baş nazirləri və xarici işlər nazirləri çıxış etmişlər. Habelə, BMT-nin Baş Assambleyasının Prezidenti və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru videokonfransda çıxış etmişlər. Eləcə də, BMT-nin Baş katibi və Avropa Komissiyasının ali nümayəndəsi/vitse-prezidentinin videomüraciətləri səsləndirilmişdir.

Təəsüflər olsun ki, qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə bəzi dövlətlər çaşqınlıq içərisində qalaraq beynəlxalq həmrəyliyi nümayiş etdirə bilmədilər. Hazırda qlobal liderliyə ehtiyac duyulduğu bir şəraitdə Prezident İlham Əliyev təşəbbüs irəli sürdü və "özünəqapanma sindromu"nun heç kəsə xeyir gətirməyəcəyini nümayiş etdirərək dünyanın dörd bir yanından müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu.

Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi. Azərbaycan koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır.

Koronavirus infeksiyası hər bir dövləti ciddi sınaq qarşısında qoymuşdur. Bəzisi bu sınaqdan layiqincə çıxmaqdadır, bəzisi isə çoxsaylı insan itkisi ilə. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru tərəfindən mart ayının 23-də Prezidentimizə ünvanlanan məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Prezident İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlər sayəsində bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir.



*Gültəkin Ağayeva,*
*Salakətin kənd tam orta məktəbinin müəllimi, əməkdar müəllim*

Avropa İttifaqının rəsmisinin Zirvə görüşündə iştirakı və çıxışı Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Qeyd olunmalıdır ki, məhz Azərbaycan daim bir-biri ilə əks qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq olmuşdur. Sadalanan faktlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın dünya miqyasında nüfuzunun daim artdığının göstəricisidir.

Cənab Prezidentimizin bu çətin anlarda Azərbaycan vətəndaşının sağlamlığı, xoşbəxt yaşaması üçün əlindən gələni etməsi, ölkəyə gətirilən tibbi avadanlıqlar, yeni xəstəxanalar, aztəminatlı ailələr üçün edilən tədbirlər və s. təqdirəlayiq hadisələrdir.Bütün bunları böyük fəxarətlə seyr edirəm və Prezidentimlə fəxr edirəm, qürur duyuram. Bu nailiyyətlər bizi sevindirir. Mən bir Azərbaycan vətəndaşı olaraq ölkəmizi, Prezident İlham Əliyevi dəstəkləyən bütün ölkələrə öz minnətdarlığımı bildirirəm. Üzümü xalqımıza tutub deyirəm. Gəlin Prezidentimizin ətrafında sıx birləşək, bir olaq, yumruq olaq. O zaman biz daha güclü olacağıq və bu amansız virusa qalib gələcəyik.

## 20 iyun Ümumdünya Qaçqınlar Günüdür



2000-ci ildə BMT-nin Baş Məclisi 20 iyun tarixini Ümumdünya Qaçqınlar Günü kimi müəyyən edən xüsusi qətnamə qəbul edib. Şübhəsiz ki, qətnamənin qəbulunda əsas məqsəd evindən, elindən didərgin düşən qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat şəraitini diqqətdə saxlamaq, onların sayının artmasının qarşısını almaq olub. Təəssüf ki, ötən əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü onu dünyanın ən çox qaçqın və məcburi köçkünü olan ölkəsinə çevirib.

Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına məruz qalıb. Sonuncu dəfə isə 250 min etnik azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovulub, Azərbaycana pənah gətirib. Eyni zamanda, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Axısxa türkü də Azərbaycanda sığınacaq tapıb.

Ermənistan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsini zorla boşaldıb. Məhz bu dövrdə XX əsrin ən faciəli hadisələrindən biri törədilib - 6000 azərbaycanlının yaşadığı Xocalı şəhəri bir gecədə darmadağın edilib. Beləliklə, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub, Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşıb. Hərbi təcavüz nəticəsində 20 min azərbaycanlı həlak olub, 100 min nəfər yaralanıb, 50 min insan müxtəlif dərəcəli xəsarət alıb. Hazırda Azərbaycanda 1 milyon 200 mindən çox qaçqın, məcburi köçkün və qaçqın statusu almaq niyyətində olan şəxs var.

# Xocavənd rayon səhiyyə işçiləri təltif edildilər



17 iyun 2020-ci il tarixində Xocavənd Rayon Mərkəzi Xəstəxanasında Səhiyyə işçilərinin peşə bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə iştirak edən Xocavənd Rayon icra Hakimiyyəti başçısının müavini Əfsanə Quliyeva bildirmişdir ki, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya elan olunan koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində bütün dövlətlər kimi, Azərbaycan dövləti də təxirəsalınmaz tədbirlər həyata keçirir. Respublika Prezidenti cənab İlham Əliyevin atdığı qətiyyətli addımlar, xalqımıza göstərdiyi diqqət və qayğı sayəsində bu gün Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində uğurlu nəticələr əldə edilir.

Bu uğurun əldə edilməsində isə heç şübhəsiz ki, həkimlərin, tibb işçilərinin də rolu olduqca böyükdür. Xəstə yaxınlarının ümid yerinə çevrilən həkimlərin və tibb işçilərinin koronavirus infeksiyası ilə mübarizə tədbirlərində gördükləri işlər danılmazdır. Koronavirus kimi təhlükəli virusa qarşı mübarizədə ön cəbhə "əsgərlərimiz" həkimlərimiz və tibbi xidmət personalıdır. Onlar mürəkkəb şəraitdə gərgin əmək sərf edərək sutka ərzində demək olar ki, fasiləsiz çalışırlar.

Xocavənd Rayon Mərkəzi Xəstəxanasında çalışan həkimlər və tibb işçiləri də ölkəmizdə yaşanan bu çətin vəziyyətdə, xüsusi karantin rejimi dövründə koronavirusla mübarizədə əsl güc, dəyanət nümayiş etdirirlər. Vəzifə səlahiyyətlərini layiqincə yerinə yetirərək üzərlərinə düşən işin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Natiq koronavirusla mübarizədə gərgin əmək sərf edən tibb işçilərinə gələcək işlərində uğurlar arzulayıb. Dövlətimizin, ölkə başçısının qayğısı, həkimlərimizin, tibb işçilərimizin əzmkarlığı sayəsində ölkəmizdə bu bəlanın tez bir zamanda aradan qalxacağını qeyd edib və bu çətin işdə onlara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən "Xocavənd Rayon Mərkəzi Xəstəxanası" Publik hüquqi şəxsin direktoru Nurəngiz Bəşirova tibb işçilərinə verilən qiymətə, diqqət və qayğıya görə cənab Prezidentə minnətdarlığını bildirdi. Xocavənd Mərkəzi Xəstəxanası olaraq bundan sonra da üzərlərinə düşən işin öhdəsindən layiqincə gəlmək üçün var gücləri ilə çalışacaqlarını bildirdi.

Sonda əhalini sağlamlığının qorunması və tibbi xidmət sahəsində səmərəli fəaliyyətlərinə görə bir neçə tibb işçisi Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edildi.

# Asim Rüstəm: "Ermənistan siyasi zəlzələ ilə qarşı-qarşıyadır"

Son günlərdə Ermənistanda olan daxili ictimai-siyasi qarışıqlıqlar mətbuatda kifayət qədər gündəmdədir. Əslində keçmiş illərə nəzər salarsaq, Ermənistanda təməli sağlam qoyulmuş nə siyasət görə bilirik, nə də idarəçilik sisteminin qanununauyğun çalışdığını. Bir dövlətdə əgər hüquq sistemi işləmirsə, xalqın hüquqları qorunmursa, burada nə demokratiyadan söz gedə bilər, nə də azad yaşayan xalqdan. Ermənistanda da demək olar ki, hüquq sistemi normal səviyyədə işləmir. Dövləti idarə edən şəxslər öz mənafelərini ön planda tutduqlarına görə arxa plana atılmış xalq artıq narazılıqlara başlayaraq, hakimiyyətə qarşı sərt reaksiyalar verməkdədir. Digər yandan isə dünyanı cənginə alan koronavirus pandemiyası məlum məsələdir ki, Ermənistandan da yan keçmədi. Zatən iqtisadi cəhətdən də zəif olan bir ölkə olaraq pandemiyanın öhdəsindən elə də asan gələ bilmirlər. İnsanlar kütləvi şəkildə yoluxur, ölürlər. Artıq qarşısı alınmayacaq qədər geniş yayılmaqda. Bir yandan xalq virusdan məhv olur, digər yandan hakimiyyətdə kreslo davası baş alıb gedir. Siyasi bir zəlzələ ilə qarşı-qarşıya olan Ermənistan heç də yaxşı vəziyyətdə deyil. Baş nazir Nikol Paşinyanın seçkilərdən əvvəl verdiyi sözlərin yalan vədlər olduğunu görən xalq artıq etiraz aksiyalarına başlamış vəziyyətdə. N.Paşinyan bir neçə dəfə prezident cənab İlham Əliyevlə qarşı-qarşıya gəldiyi debatlarda rəzil olması, siyasi səhvlər edərək ona inanan xalqı ən əsas da sadəcə şou xarakterli çıxışlar edərək təmsil etdiyi ölkəsini və təmsil etdiyi partiyasını gülünc vəziyyətə salmışdır. Koronavirus pandemiyası dövründə vətəndaşların sosial-iqtisadi problemlərini həll etməkdə ciddi çətinliklərlə qarşılaşır, xəstəliyin yoluxma sayının artmasının qarşısını ala bilməməsi səbəbilə sürətlə sosial dayaqlarını itirir. Erməni mətbuatı N.Paşinyanın aqoniya vəziyyətində olduğunu iddia edir, bunun əsas səbəbini isə parlament müxalifətinin, xüsusilə də Çiçəklənən Ermənistan Partiyasının açıq şəkildə hökuməti tam tərkibdə istefasını tələb etməsi göstərilir.

N.Paşinyanın müxalifətin və Çiçəklənən Ermənistan Partiyasının istefaya çağırış tələblərinə cavabı gecikmədi, Milli Təhlükəsizlik Xidməti 14 iyunda Çiçəklənən Ermənistan Partiyasının sədri Qaqik Çarukyana və tərəfdarlarına qarşı bir gündə üç cinayət işi açdı. 14 iyunda Təhlükəsizlik Xidməti əməkdaşlarının Çarukyanın evində axtarış aparması gərginliyi birazda artırdı.

Bir sözlə, ölkədəki siyasi böhran diktatura rejimi ilə müşayiət olunur.Hadisələr zamanı insanların ifadə azadlığı, azad toplaşma hüququ, hüquq-mühafizə orqanları tərəfindən lüzumsuz yerə güc tətbiq olunmaması, KİV-in sərbəst fəaliyyətinə imkan yaradılması və sair kimi Qərbin "önəm verdiyi" bütün dəyərlər ayaq altına salınır.Belə bir sual ortaya çıxır, Qərb niyə susur?

İşğalçı olduğu dünya ölkələrinə bəlli olan Ermənistan dövlətini bir yandan da Qərb səssiz qalaraq tərəfin saxlamaqdadır. Səbəbi isə Ermənistanı demokratik bir ölkə olaraq tanıtmaq, ölkədə yaşanan hadisələri ört-basdır etməkdir. Eyni hal Azərbaycanda olsa anında buna qarşı reaksiyalar olardı. Demək ki, işğalçı dövlətin tərəfin tutanlar da onlar kimi, doğrularin, haqqın deyil, yanlışların yanındadırlar.

Son günlərdə baş tutmuş online konfrasda Paşinyanın İlham Əliyev tərəfindən susdurulması ilə bir daha sübut olundu ki, sadəcə əzbərlənmiş sözlər yalnız özünü və ölkəsini biabır etməkdən başqa bir şey deyil.

Aristotelin də dediyi kimi,"Hər ölkə layiq olduğu hökuməti alır". Eynilə Ermənistan kimi.

# Anar Əmrahov: "Ali Baş Komandan İlham Əliyevin bu çıxışı bizdə ordumuza qarşı inamı daha da artırdı"

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi mühüm tədbirlərindən biri də Milli Ordunun təşkili idi. Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə ordu quruculuğunun əsası qoyulsa da, Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ordu quruculuğu prosesi dayanmış, Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesinə başlanılmışdır. Heydər Əliyevin təşəbbüsü ilə 1971- ci ildə yaradılan C.Naxçıvanski adına hərbi liseyi və Naxçıvan Muxtar Respublikasında yaradılan Heydər Əliyev adına hərbi liseyi ötən illər ərzində minlərlə hərbi kadrlar yetişdirmişdir. XX əsrin sonlarında Azərbaycan müstəqilliyinin ilk günlərində mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi vəziyyətlə üzləşdi.Bu eyni zamanda özünü ordu sahəsində də göstərdi.Vahid komandanlığın olmaması ucbatından silahlı birləşmələr müxtəlif qrupların əlində cəmlənmişdi.Bunun nəticəsi idi ki, Dağlıq Qarabağda erməni təcavüzü genişlənmiş, torpaqlarımızın 20%-dən artıq hissəsi ermənilər tərəfindən işğal edilmişdir.

1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə ordu quruculuğunda yeni mərhələ başladı.1994-cü ildə mayın 12-də atəşkəsin imzalanması ilə ordu quruculuğunda böyük islahatlar aparıldı. Ulu öndərin 1998-ci il may ayının 22- də imzaladığı fərmanla 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə general S.Mehmandarovun rəhbərliyi ilə ilk əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün, 26 iyun- Azərbaycan Silahlı Qüvvələri günü elan edilmişdir. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu, eləcədə Milli təhlükəsizlik siyasəti ilə başladığı işlər, onun siyasi kursunun laiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir.Prezidentin göstərişi ilə bütün hərbi hissələr, hərbi şəhərciklər, hərbi bazalar faktiki olaraq yenidən qurulur.Hərbi hissələrin 90 % -də tikinti-bərpa və yenidənqurma işləri aparılmışdır.Bu gün Azərbaycan ordusunun malik olduğu silah və texnikanın 80%- dən çoxu yenilənib, ordumuz ən müasir silahlarla, hərbi sursatlarla, zirehli texnikalarla, zenit raket qurğuları ilə, hərbi hava qüvvələri ilə təchiz olunub.Bütün bunlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsində mümkün olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə şəxsi heyyətin xidmət şəraitinin yaxşılaşdırılması ilə bərabər zabitlərin məişət problemləri də həll olunmuşdur. İllərlə orduda laiqli və qüsursuz xidmət göstərmiş zabitlər mənzillərlə təmin olunmuş, hərbi qulluqçuların əməkhaqları müntəzəm olaraq artırılmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilən ordumuzun gücü 2016-cı il aprel ayında bir daha təsdiq olundu.Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş verən dördgünlük müharibədə Azərbaycan silahlı qüvvələri qələbə qazanmış, Tərtər rayonunun strateji əhəmiyyətli yüksəklikləri və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonun Gülüstan kəndi, Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

2020-ci il iyun ayının 25-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Mingəçevir şəhərinə səfər etmişdir. Prezident Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin açılışında iştirak etmiş, qərargah binasında yaradılan şəraitlə tanış olmuşdur. Hərbi hissə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev hərbiçilərlə görüşmüş, nitqində bildirmişdir ki,"Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür.Bu gün Azərbaycan ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyətimiz nəticəsində əldə etmişik. Çünki mənim prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir. Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir."

Ali baş komandan İlham Əliyevin bu çıxışı bizdə ordumuza qarşı inamı daha da artırdı. İnanırıq ki, Azərbaycan dövləti, Azərbaycan xalqı, yenilməz ordumuzun gücü sayəsində işğalçı Ermənistan hökumətinin zəbt etdiyi torpaqları mütləq azad edəcəkdir.

# Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü

26 iyun "Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü"dür.

Ötən yüzilliyin bəlalarından sayılan narkomaniya təəssüflər olsun ki, 21-ci əsrdə də qlobal problemler sırasında qalmaqdadır. Narkomanlığın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında məlumatlara yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinir. Ümumiyyətlə, BMT-nin hesablamalarına görə, bu gün dünyada təqribən 250 milyona yaxın insan narkotiklərdən bu və ya digər formada əziyyət çəkir. Bu 15-64 yaş üzrə dünya əhalisinin təqribən 5 faizini təşkil edir.

Narkomanlıq narkotik zəhərlərdən psixi asılılıq yaradan xəstəlikdir. Bu, xəstəliyə tutulmuş şəxslər özlərini cəmiyyətdən təcrid edirlər. Bu da onların ətrafdakı insanlara münasibətini dəyişir. Belə insanlara cəmiyyətin hər bir təbəqəsində rast gəlmək olur. Narkomanlıq eynilə narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik dinindən, dilindən, irqindən, sosial vəziyyətindən və s. asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükəlidir. O, cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır, QİÇS-in sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı ləngidir, ailə və icmaları dağıdır. Təkcə Rusiya Federasiyasında, son məlumatlara görə, narkomanların sayı 500 mindən artıqdır. Bu böyük bəla ilə hər bir instansiya öz sahəsində bütün variantlardan istifadə etməklə mübarizə aparılmalıdır. İstər maarifləndirmə, istərsə də inzibati qaydada mütəmadi tədbirlər görülməlidir. Çünki bu ağır xəstəlik cəmiyyətin məhvinə yönəlmişdir. Hər hansı bir xəstəliklə həkimlər öz sahələrində müalicə işləri görür, lazım gəldikdə radikal cərrahi üsullara əl atılır. Lakin narkomaniyanı təkcə tibb sahəsi işçilərinin gücü ilə aradan qaldırmaq olmaz. Cəmiyyətin bütün qüvvələri bu bəla ilə mübarizədə birləşməlidirlər.

Azərbaycanda də bu sahədə xeyli işlər görülüb. Belə ki, ölkəmiz 1961-ci ildə BMT-nin Narkotik Vasitələrin İstifadəsi üzrə Konvensiyaya, 1971-ci ildə Psixotrop Maddələrin İstifadəsi üzrə Konvensiyasına qoşulub. Həmçinin "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyasına" və "Narkotik vasitələrin və Psixotrop Maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 1988-ci il Konvensiyasına" qoşulmaqla bu cinayətlərə qarşı mübarizədə öz üzərinə mühüm vəzifələr götürüb. Narkomaniya ilə mübarizədə hər bir vətəndaş fəallıq göstərməlidir. Yeniyetmə və gənclərin bu sahədə daha da maarifləndirilməsi onlar arasında narkomaniyaya və onu yayan verdişlərə qarşı mübarizə aparmaq üçün vacibdir. Bu da ən əsası həm indiki, həm də gələcək nəsillərin cəmiyyətdə sağlam yetişmələri üçün həlledici rol oynayacaqdır.

Odur ki, insanların sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin harmoniyasını pozan, sosial-iqtisadi tərəqqini ləngidən, bir sözlə həyatı iflic edən narkomanlığa münasibətdə hər birimiz barışmaz mövqe tutmalı və ümumbəşəri bəlaya qarşı qətiyyətli mübarizə aparmalıyıq.

Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti
Baş redaktor: Ruslan Şirinov

Hesab №: AZ73AIIB33080019444000298140
VÖEN: 7900031641
"Kapital Bank" ASC Beyləqan Filialı

Ünvan: Yeni Xocavənd qəsəbəsi,
Tiraj:1000,
Sifariş 765

Mob: (051)720-21-71
www.Xocavend-ih.gov. az
www. Xocavendmks. com
www. Garadaghli. org

Qəzet "Xocavənd" qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş "Son dakika" mətbəəsində çap olunmuşdur.